**Azərbaycan Respublikası**
**Qobustan rayonu İcra hakimiyyəti başçısının**
# SƏRƏNCAMINDAN ÇIXARIŞ

**№002** **10 yanvar 2022-ci il**

**Qobustan şəhəri ərazisində yaşıllıq ərazilərini, süpürülən sahələri, daşınaraq zərərsizləşdirilməsi nəzərdə tutulan bərk məişət tullantılarının həcmini, işıqlandırma nöqtələrinin sayının müəyyənləşdirilməsi haqqında**

"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.9.-cu bəndində uyğun olaraq

**Qərara alıram:**

1. Qobustan şəhəri ərazisində yaşıllıq ərazilərini, süpürülən sahələri, daşınaraq zərərsizləşdirilməsi nəzərdə tutulan bərk məişət tullantılarının həcmini, işıqlandırma nöqtələrinin sayının müəyyənləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

Məharət Əkbərov – Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-komissiyanın sədri

Muxtat Kuryayev – Qobustan Kommunal Müəssisələri Kombinatının rəisi

İbadət Bəhrəmov – Qobustan RİHB aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini

İsrafil Abdulrəhimov – Qobustan rayonu üzrə Maliyyə şöbəsinin baş məsləhətçisi

Xalid Novruzov – Qobustan Qobustan RİHB aparatının memarlıq və tikinti şöbəsinin aparıcı məsləhətçisi

Təbriz Həmidov – Qobustan rayonu İcra hakimiyyəti başçısının Qobustan şəhər İƏD üzrə nümayəndəsi

Cəsarət Rəhimov – Qobustan rayonu İcra hakimiyyəti başçısının Qobustan şəhəri İƏD üzrə nümayəndəliyinin baş məsləhətçi – baş mühasibi

2. Komissiyaya tapşırılsın ki, Qobustan şəhəri ərazisində yaşıllıq ərazilərini, süpürülən sahələri, daşınaraq zərərsizləşdirilməsi nəzərdə tutulan bərk məişət tullantılarının həcmini, işıqlandırma nöqtələrinin sayının müəyyənləşdirərək müvafiq akt tərtib edilsin.

3. Sərəncamın icrasına nəzarət Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri M.Əkbərova həvalə edilsin.

**Qobustan rayonu İcra hakimiyyətinin**
**başçısı: A.M.Məmmədov**